## 16 Noyabr Beynəlxalq Tolerantlıq Günüdür

# Tolerantlığın qorunduğu Azərbaycan

**Özündə dini dözümlülüyü, yəni digər inanc və əqidələrə qeyri-qısqanc yanaşmanı ehtiva edən tolerantlıq insan azadlıqları və hüquqlarının təsdiqi, plüralizm və demokratiya əsasında formalaşır.**



1948-ci ildə İnsan Hüquqlarına dair Ümumi Bəyannamənin qəbulu ilə tolerantlıq fikirləri təsbitini tapıb. Ondan sonra dünyada milli, etnik, dini, irqi ayrı-seçkilik, assimilyasiya və diskriminasiya azalmağa başlayıb.

ABŞ-da qaradərili Barak Obama bu ölkənin 44-cü prezidenti olub, 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülüb. Onu da deyək ki, Amerika cəmiyyətində hazırda "zənci" sözünün işlədilməsi kobudluq sayılır. Mərakeşli qız Nəcad Vallo-Belkasim sabiq Fransada Prezident Fransua Ollandın mətbuat katibi və qadın hüquqları üzrə nazir, daha sonra təhsil naziri kimi yüksək vəzifə tutub. Daha yeni bir misal: ötən ay 26 yaşlı Azərbaycan əsilli Rumina Purmuxtari İsveçin yeni qurulan hökümətində ətraf mühit naziri vəzifəsinə təyin edilib. Onun atası İbrahim kişi vaxtilə Təbriz şəhərində siyasi baxışlarına görə təqib və təzyiqlərə məruz qaldığından oradan mühacirət edib. Bu da tolerant Azərbaycana aid analoji misal: 2009-cu ildən etibarən bədii gimnastika üzrə milli komandamızın baş məşqçisi vəzifəsində çalışmış bolqarıstanlı Mariana Toteva Vasileva Prezident sərəncamı ilə Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini vəzifəsinə təyin edilib.

Azərbaycanda ta qədimdən dini tolerantlıq mədəniyyəti yüksək olub. Bu, həm də İslam dininin digər inanclara dözümlülüyü təlqin etməsi ilə bağlıdır. Çoxkonfessiyalı məskənlərdən sayılan ölkəmizdə tarixən müxtəlif dini və mədəni abidələr olub və qorunub saxlanır.

Bəzi ölkələrdə hələ də mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması müşahidə edilir. Bizdə isə vəziyyət tamamilə fərqlidir. Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, Azərbaycanda etnik-mədəni müxtəlifliyin, multikultural, tolerant mühitin qorunması və təşviqi dövlət siyasətinin əsas istiqamətlərindəndir.

UNESCO-nun 50 illiyi keçirilən zaman – 1995-ci ildə Beynəlxalq Tolerantlıq Günü təsis edilib. Elə həmin il qəbul edilmiş Azərbaycan Konstitusiyasının 25-ci maddəsində qeyd edilir ki, "dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir".

Ölkəmizdə Beynəlxalq Tolerantlıq Günü hər il xüsusi olaraq, konfessiya nümayəndələrinin iştirakı ilə qeyd olunur. Ötən illərdə Bakıda "Dövlət və din: Dəyişən dünyada tolerantlığın gücləndirilməsi" adlı Beynəlxalq Forumun, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumun keçirilməsi, 2016-cı ilin "Multikulturalizm ili" elan olunması tolerantlıq yönümündə atılan konkret əməli addımlardır.

Ayrı-ayrı dövrlərdə ölkəmizdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar yayılıb, biri-birinə qarşılıqlı təsir göstərib, dini həyatın özəlliyini şərtləndirib. 1815-ci ildə Bakıda ilk pravoslav kilsəsi fəaliyyətə başlayıb. 20 il öncə Roma Papası mərhum II İohann Pavel əhalisinin cəmi 0,5 faizini katoliklərin təşkil etdiyi Azərbaycanda səfərdə olub. 2003-cü ildə isə paytaxtımızda Avropanın ən iri sinaqoqlarından biri açılıb. 2009-cu ildə İSESCO tərəfindən Bakının "İslam mədəniyyətinin paytaxtı" elan olunması paytaxtımızın həqiqətən də Şərq və Qərb sivilizasiyalarını birbirinə qovuşduran şəhər olmasını bir daha göstərib.

Heydər Əliyev Fondu illərdir ki, "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsini uğurla həyata keçirir. Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri, Strasburq kafedralının pəncərələri, Həştərxanda müqəddəs Vladimir kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi, Luvr muzeyi, Versal sarayı və digər dini-mənəvi, mədəni ocaqlarda aparılmış bərpa işləri bu sıradandır.

Azərbaycan Vatikanda da abidələr bərpa edir. Heydər Əliyev Fondu və Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında Komodilla katakombalarının bərpasına dair əməkdaşlıq özünün mühüm mərhələləri ilə əlamətdardır. Müqəddəs Marçellinio və Pietro katakombaları bərpadan sonra Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə ictimaiyyətə təqdim edilib. Sonra Müqəddəs Sebastian Bazilikasında muzey yaradılıb və sarkofaqlar restavrasiya olunub. Hazırda Komodilla katakombaları bərpa edilir.

Dağ Yəhudiləri İcmasının keçmiş rəhbəri, bir neçə ay öncə haqqa qovuşmuş Semyon İxiilov həmişə fəxrlə deyirdi ki, Azərbaycandakı dini tollerantlıq çoxlarını təəccübləndirir: "Tolerantlıq Azərbaycan xalqının tarixi sərvətidir. Yüzillər ərzində Azərbaycanda dini məzmunda qarşıdurma qeydə alınmayıb", - O, buna səbəb kimi ölkəmizdə dini icmaların qardaşlıq ailəsində yaşamasını, dövlət-din münasibətlərinin şəffaf olduğunu göstərirdi.

Belə olduğu halda Qarabağda müharibə zamanı və ondan sonra dini irsə dağıdıcı münasibətlə bağlı erməni haray-həşiri son dərəcə yersiz görünür. Bütün dünya bilir ki, işğalçı da, dini-mədəni dəyərləri məhv edən və məscidlərdə donuz saxlayan da məhz ermənilərdir. İllərlə Azərbaycanın haqq səsini, bəşərin sülh çağırışlarını qulaqardına vuran, beynəlxalq aləmin səylərini heçə endirən, mənəvi məkanlarımıza həqarət edən, dini ibadətgahlarımızı, qəbiristanlıqlarımızı dağıdan mənfur işğalçı, nəhayət, cavab verməlidir...

Qəbələ camaatı, xüsusilə də orada yaşayan udilər ötən il Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın Nic qəsəbəsində yerləşən Müqəddəs Məryəm Ana Alban kilsəsində olmalarını iftixarla xatırlayır. Oradakı Müqəddəs Məryəm Ana kilsəsi 2019-cu ildə Heydər Əliyev Fondu tərəfindən bərpa olunmağa başlanmış və 2020-ci ilin noyabr ayında 44 günlük müharibə zamanı işlər başa çatdırılıb.

Dövlət başçısı görüş zamanı udi xalqının böyük tarixi mirası olduğunu söyləyib: "İndi həm Qəbələ rayonu ərazisində və eyni zamanda, azad edilmiş torpaqlarda siz gedib ibadət edirsiniz - həm Xudavəngdə, həm Ağoğlanda. Orada udi xalqına məxsus olan digər məbədlər də var. Onların böyük hissəsi dağılmış, ya da ki, yarıdağılmış vəziyyətdədir. Ona görə, onları da bərpa edəcəyik. Siz o kilsələrə də gedəcəksiniz".

Altı mindən çox sakini olan Nic kəndi Alban-Udi Xristian Dini İcmasının rəhbəri Robert Mobilinin ürək sözləri:

-Prezidentin baş çəkdiyi kilsədə ona qədim alban əlifbasında əlyazmalar təqdim olundu. Bu əlyazmalar məşhur linqvistlər tərəfindən udi dili əsasında 9 dilə tərcümə edilib. Bizim Müqəddəs Yelisey "Cotari" kilsəsi 1823-cü ildən fəaliyyət göstərir. 2006-cı ildə Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Nicdə azərbaycanlılar, udilər və ləzgilər can bir qəlbdə yaşayırlar. Bizi heç nə ayıra bilməz. Vətən müharibəsində kəndimizdən şəhid olan üç nəfərdən biri ləzgi idi. On bir qazimiz var ki, onlardan da beşi udidir. Məncə, dünyada Azərbaycan qədər həqiqi tolerant ölkə yoxdur.

Nicdə o da xatırlanıb ki, işğaldan azad edilmiş Şuşada uzun fasilədən sonra təşkil edilmiş "Xarıbülbül" festivalında udi xalqının nümayəndələri də çıxış ediblər. Ümumiyyətlə, festivalının ilk günündə Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri səhnəyə çıxıb və öz mədəniyyətlərini nümayiş etdiriblər. Bu, bizim birliyimizin daha bir nümayişi idi.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***